1_Layout 1 28.07.2023 9:59 Page 1

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*

**İlham ƏLİYEV**


# ƏSGƏR

№ 15 (654)

31 iyul
2023-cü il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti


# ŞUŞADAN DÜNYAYA MESAJ

## İlham Əliyev Azərbaycan reallıqlarını, dəyişməz mövqeyini, humanizm prinsiplərini bir daha nümayiş etdirdi

**“Azərbaycan” qəzetinin müxbiri Rəşad Baxşəliyevin müəllifi olduğu “Şuşadan dünyaya mesaj” başlıqlı məqalənin ictimai aktuallığını nəzərə alaraq ixtisarla oxucularımıza təqdim edirik.**

Tarixi Zəfərimizin zirvəsi olan Şuşa işğaldan azad edildikdən sonra bir sıra mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edib. İyulun 21-də, milli mətbuatımızın 148-ci ildönümünün qeyd edildiyi gündə isə mədəniyyətimizin paytaxtı növbəti bir tarixi tədbirin məkanı oldu.

Prezident İlham Əliyevin iştirakı ilə qədim qala şəhərimizdə “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda I Şuşa Qlobal Media Forumunun açılışı oldu. 49 ölkədən 150 xarici qonağın, o cümlədən dünyanın 34 ölkəsinin dövlət informasiya agentliyinin, 12 beynəlxalq təşkilat və media qurumunun, eləcə də 60 yerli media orqanının rəhbərlərinin, nümayəndələrinin iştirak etdiyi forumda İlham Əliyev bir daha dünyaya Azərbaycan reallıqlarını çatdırdı və regionda baş verən prosesləri dəyərləndirdi. Prezident həmçinin məğlub Ermənistana, onun havadarlarına və separatçı qüvvələrə xəbərdarlığını ünvanladı.



Xarici və yerli media nümayəndələrinin suallarını cavablandıran İlham Əliyev öncə forum iştirakçılarına bir daha bəyan etdi ki, üzərində gəzdikləri torpaq qədim Azərbaycan yurdudur. Əgər Şuşa erməni şəhəri olsaydı, 30 il ərzində haylar bu şəhərin simasını mütləq dəyişərdilər. Amma Şuşa işğaldan azad ediləndə dünya onun acınacaqlı vəziyyətinə şahidlik etdi.

Barbar ermənilər Şuşadakı bütün 17 bulağı qurudub, 14 məscidi dağıtmışdılar. Şuşada daş daş üstə qalmamışdı. Bu gün Azərbaycan dövləti öz iqtisadi qüdrəti hesabına Şuşanın əvvəlki əzəmətini özünə qaytarır. Bir zamanlar bizim üçün əlçatmaz arzuya çevrilən, düşmənin bizə acıq verirmiş kimi yallı getdiyi Şuşa bu gün bütün dünya üçün beynəlxalq səviyyəli tədbirlərin, forumların, siyasi diskussiyaların, mədəniyyət və sülh ünvanına çevrilib. Bu mötəbər forumun Şuşada keçirilməsi təsadüfi deyildi. Son vaxtlar bəzi xarici himayədarlarına güvənən, sülh danışıqlarını hər vəchlə pozmağa çalışan revanşistlər müxtəlif iddialar, bəyanatlar səsləndirərək həqiqətləri gizlətməyə can atırdılar. Amma İlham Əliyev 44 günlük Vətən müharibəsi zamanı əsl diplomat, natiq kimi dünya mediasına verdiyi müsahibələrdə haqq işimizi, doğru yolda olduğumuzu sübuta yetirdiyi kimi, Şuşa forumunda da bir daha həqiqətləri ortaya qoydu. Azərbaycan Prezidenti Şuşadan məğlub Ermənistanı sülhə çağırdı, regionda əmin-amanlığın bərqərar olması üçün barış sazişinin imzalanmasının vacibliyini bildirdi.

Əgər sülh sazişi imzalanarsa, bu, ilk növbədə regionun risk bölgəsi təhlükəsindən qurtuluşu olar, investorların bölgəyə diqqətinin artması prosesi baş verə bilər: “Biz sülh müqaviləsinin imzalanmasına nail olsaq, bu, ümumiyyətlə, Cənubi Qafqazda vəziyyəti sağlamlaşdıracaq və Cənubi Qafqazı yüksək risk zonasından çıxarmış olacaq. Çünki yüksək risk zonası təkcə ekspertlərin qiyməti deyil, bu, həmçinin reytinqlərdir, kreditlənmə imkanlarıdır. Bunlar birbaşa olaraq xarici sərmayələrlə bağlı məsələdir, xüsusilə indi. İnvestorlar ilk növbədə potensial və mümkün riskləri nəzərə alırlar. Ermənistanla münasibətlərin tənzimlənməsi bu sualı gündəmdən çıxaracaq. Münasibətlərin normallaşması həm bizim iqtisadiyyat, həm də Ermənistan iqtisadiyyatı üçün və ümumiyyətlə, daha genişmiqyaslı planların gerçəkləşdirilməsinə imkan verəcək. Müdafiə potensialı ilə bağlı bu qədər maliyyələşdirməyə ehtiyac qalmayacaq. Odur ki, müəyyən maliyyə resursları ixtiyarımızda sərbəst olacaqdır”.

İlham Əliyev forumda bir daha Ermənistana səslənərək sülhün yaxın olduğunu bildirdi və qeyd etdi ki, əməldə, sözdə deyilən fikirlərin kağız üzərində də təsdiqini tapması mütləqdir.

Forumda Azərbaycan və Türkiyə qardaşlığından da bəhs edən İlham Əliyev bu birliyin əbədi və sarsılmaz olduğunu dedi. Eyni zamanda qeyd etdi ki, qardaşı Rəcəb Tayyib Ərdoğanla şəxsi dostluğu təkcə regionda deyil, dünyada nümunə kimi göstərilir.

Bir sözlə, Şuşada keçirilən Qlobal Media Forumu Azərbaycan həqiqətlərinin və bölgədə baş verən proseslərin dünya ictimaiyyətinə çatdırılması baxımından mühüm hadisə kimi qiymətləndirilməlidir. Çünki İlham Əliyev Şuşa zirvəsində növbəti dəfə Azərbaycan reallıqlarını, yürütdüyü siyasi kursu, dəyişməz mövqeyini, humanizm prinsiplərini dünyaya nümayiş etdirdi. Dövlət başçısının söylədiyi kimi, Azərbaycan hədəflərinə doğru gedir. Ölkəmiz postmüharibə dövründə ardıcıl şəkildə hədəflərinə nail olub və bu proses uğurla davam edir. Bu yolda Azərbaycanı heç kim saxlaya, yolundan döndərə bilməz. Çünki Azərbaycan haqlı və güclüdür.

Azərbaycanın ərazi bütövlüyünü təmin edən Prezident İlham Əliyev bu gün ölkəmizin möhtəşəm gələcəyini qurur.

Qeyd edək ki, Şuşa forumu panel müzakirələrlə davam edib. Forum çərçivəsində media və informasiya-kommunikasiya sahəsində qlobal səviyyədə mühüm aktuallıq kəsb edən məsələlər müzakirə olunub.

Bugünədək çoxsaylı beynəlxalq tədbirin keçirildiyi Şuşa şəhəri müstəqil Azərbaycanın tarixində ilk dəfədir dünyanın aparıcı media, jurnalist təşkilatları rəhbərlərini, informasiya-kommunikasiya sahəsində nüfuzlu ekspertləri, tanınmış jurnalistləri bir araya toplayıb.

# DAXİLİ İŞLƏR NAZİRLİYİNDƏ GÖRÜŞ KEÇİRİLİB



Azərbaycan Respublikasının Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun dəvəti ilə Türkiyə Respublikası Jandarm Baş komandanının müavini ordu generalı Ali Çardakcının başçılıq etdiyi nümayəndə heyəti ölkəmizdə rəsmi səfərdə olub.

Əvvəlcə cənab Ali Çardakcı və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin abidəsi önünə tər çiçək dəstələri düzüb, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad ediblər.

Daha sonra Şəhidlər xiyabanındakı “Əbədi məşəl” kompleksini və Türk şəhidliyini ziyarət ediblər.

İyulun 20-də Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov ordu generalı Ali Çardakcının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Qonaqları salamlayan nazir Azərbaycanın Türkiyə ilə əlaqələrinin hər zaman yüksələn xətlə inkişaf etdiyini, Ulu Öndər Heydər Əliyevin bu sahədəki xidmətlərini, onun “Bir millət, iki dövlət” siyasətinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirildiyini, dövlət başçılarının siyasi iradəsi və qarşılıqlı səfərləri nəticəsində dost və qardaş ölkələrimiz arasındakı münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu məmnunluqla xatırladıb.

Nazir rəhbərlik etdiyi qurumun Türkiyənin Daxili İşlər Nazirliyi, o cümlədən Jandarm Baş Komandanlığı ilə əməkdaşlığın genişləndirilməsinə böyük önəm verdiyini, Daxili Qoşunların formalaşmasında, ən müasir tələblərə cavab verən quruma çevrilməsində, şəxsi heyətin peşəkarlığının daha da yüksəldilməsində Türkiyə Jandarm Baş Komandanlığının böyük xidməti olduğunu xüsusi vurğulayaraq buna görə təşəkkürünü bildirib.

Səmimi qəbula və ətraflı məlumata görə minnətdarlığını bildirən ordu generalı Ali Çardakcı Azərbaycana səfərindən, Bakının dünyanın ən gözəl paytaxtlarından, ən təhlükəsiz şəhərlərindən biri olmasından, ölkəmizin dinamik, sürətli inkişafından, eyni zamanda Daxili Qoşunların yüksək peşəkarlığa və döyüş qabiliyyətinə malik mobil bir quruma çevrilməsindən məmnun olduğunu bildirib.

O, iki ölkənin müvafiq orqanları arasındakı faydalı işbirliyini yüksək qiymətləndirib, “Bir millət, iki dövlət” olaraq Türkiyənin hər zaman Azərbaycanın yanında yer aldığını, ordusunun, Daxili Qoşunlarının inkişafı üçün bundan sonra da səylərini əsirgəməyəcəklərini, əməkdaşlığın, təcrübə mübadiləsinin qardaş xalqlarımızın və ölkələrimizin mənafelərinə xidmət etdiyini vurğulayıb.

Görüşdə tərəfləri maraqlandıran bir sıra məsələlər müzakirə edilib.

Daxili Qoşunların Baş İdarəsində Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədovun ordu generalı Ali Çardakcının rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşü olub.



General-leytenant Ş.Məmmədov Türkiyə Jandarm Baş Komandanlığı ilə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları arasında dostluq və hərbi əməkdaşlıq münasibətlərinin daha da genişləndiyini qeyd edib, qonaqlara qoşunların Vətən müharibəsindəki döyüş yolu və inkişafı barədə ətraflı məlumat verib.

Səfər çərçivəsində dost və qardaş ölkənin nümayəndə heyəti Daxili Qoşunların Ali Hərbi Məktəbində təlim-tədrisin təşkili, kursantlar üçün yaradılmış şərait, o cümlədən Bakı şəhərində yerləşən “N” saylı hərbi hissələrlə tanış olub.

**DİN-in Mətbuat xidməti**

2 - 1_Layout 1 28.07.2023 9:25 Page 1



## DAXİLİ İŞLƏR NAZİRİNİN MÜAVİNİ - DAXİLİ QOŞUNLARIN KOMANDANI "İDEF-2023" SƏRGİSİNDƏ İŞTİRAK EDİB



İyul ayının 25-dən 28-dək Türkiyə Respublikasının İstanbul şəhərində Türkiyə Respublikası Prezident Administrasiyasının himayəsində, Milli Müdafiə Sənayesi Nazirliyinin iştirakı, Türkiyə Silahlı Qüvvələrini Gücləndirmə Fondunun rəhbərliyi və cavabdehliyi ilə 16-cı Beynəlxalq Müdafiə Sənayesi Sərgisi - "İDEF-2023" keçirilib.

Milli Müdafiə Sənayesi Nazirliyinin evsahibliyində, eləcə də müxtəlif hərbi və mülki qurumların dəstəyi ilə 1993-cü ildən etibarən, hər iki ildən bir keçirilən sərgidə dünyanın xeyli sayda hərbi sənaye şirkəti iştirak edib.

Sözügedən sərgidə ölkəmizi Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Müdafiə Sənayesi Nazirliyi, Dövlət Sərhəd Xidməti və digər güc strukturlarının vəzifəli şəxslərindən ibarət böyük nümayəndə heyəti təmsil edib. Daxili İşlər Nazirliyindən müvafiq sərgidə Daxili işlər nazirinin müavini - daxili qoşunların komandanı general-leytenant Şahin Məmmədov və DQBİ-nin Maddi-texniki təminat idarəsinin qərargah rəisi-idarə rəisinin müavini polkovnik Tamirlan Fərmanov iştirak ediblər.




Sərgi zamanı nümayəndə heyəti təhlükəsizlik və müdafiə sahəsində ixtisaslaşan dünyanın bir çox aparıcı şirkətinin yüksək texnologiyalı məhsullar və xüsusi vasitələr nümayiş etdirilən pavilyonlarına baş çəkib, bir sıra avadanlıqların təqdimatı ilə tanış olub.

General-leytenant Ş.Məmmədov, həmçinin səfər çərçivəsində Türkiyə Respublikasının Jandarm baş komandanı ordu generalı Arif Çetinlə görüşüb.

**Beynəlxalq hərbi əməkdaşlıq şöbəsi**

## MÜASİR METODLARLA KEÇİRİLƏN TƏLİMLƏR ŞƏXSİ HEYƏTİN DÖYÜŞ QABİLİYYƏTİNİ ARTIRIR



17074 saylı hərbi hissənin döyüş hazırlığının qorunub saxlanılmasında xüsusi əhəmiyyət kəsb edən bölmələrdən biri də xüsusi təyinatlı dəstədir. Dəstənin şəxsi heyətinin əsas fəaliyyəti regionda ictimai təhlükəsizliyin qorunub saxlanılması, hüquqazidd əməllərin qarşısının alınması, silahlı cinayətkarların axtarılıb tutulması və zərərsizləşdirilməsidir.

Hərbi hissənin komandiri polkovnik Azər Hüseynov xüsusi təyinatlı dəstənin xidməti-döyüş fəaliyyəti barədə danışarkən bildirdi ki, dəstə qarşıya qoyulan tapşırıqları uğurla yerinə yetirməyə hər an hazırdır. Təlimlərdə iştirak edən xüsusi təyinatlılar yüksək peşəkarlıq və xüsusi fədakarlıq nümayiş etdirirlər. Onların hərtərəfli hazırlığı bunu deməyə əsas verir.





Hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Ramin Məmmədov isə dəstənin 2023-cü ilin I yarımilinin xidməti-döyüş fəaliyyətinin yekunlarına görə liderliyi qoruyub saxladığını nəzərə çatdırdı. Qeyd etdi ki, 2020-ci il sentyabrın 27-dən başlayaraq torpaqlarımızın düşmən tapdağından azad edilməsi uğrunda gedən 44 günlük Vətən müharibəsində dəstənin ümumilikdə 50 nəfər hərbi qulluqçusu iştirak edərək böyük cəsarət və qəhrəmanlıq nümayiş etdirib, onlardan 5 nəfəri şəhidlik zirvəsinə ucalıb.

Dəstə komandirinin müavini-qərargah rəisi mayor Yasin Cəfərov vəzifə borclarından irəli gələn tələblərdən danışarkən söylədi ki, hava şəraitindən asılı olmayaraq, şəxsi heyətlə təlim-məşqlər davamlı olaraq keçirilir. Şəxsi heyətin döyüş təlimi Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının müvafiq direktivinin tələblərinə əsasən təşkil edilir. Əsas diqqət atəş və fiziki hazırlıqları ilə yanaşı, xüsusi-taktiki hazırlıq, hərbi topoqrafiya, həmlədesant hazırlığı, tək əsgərin döyüş təlimi, hərbi-tibbi hazırlıq, hərbi mühəndis hazırlığı və mütəxəssislərlə ixtisas hazırlığı üzrə məşğələlərə yetirilir. Hərbi qulluqçuların dünyagörüşü, mənəvi-psixoloji keyfiyyətləri təkmilləşdirilir.

Mayor Y.Cəfərov bölmənin fəaliyyətinin spesifikliyi barədə məlumat verərkən vurğuladı ki, təlimlər müxtəlif relyef və iqlim şəraitlərində təşkil olunub keçirilir. Təsdiq olunmuş müvafiq plana əsasən, məşğələlər bölmənin üzərinə düşən vəzifələrin və tapşırıqların əhəmiyyətinin dərk edilməsi istiqamətində təşkil olunur. Şəxsi heyətin təhkim olunmuş silaha mükəmməl yiyələnməsi, əlbəyaxa döyüş fəndlərinin öyrənilməsi, müxtəlif şəraitlərdə xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı döyüş və digər texnikanın bacarıqla tətbiq edilməsi, yüksək nizam-intizamın möhkəmləndirilməsi və sayıqlığın artırılması, eləcə də fiziki və psixoloji gərginliyə müvəffəqiyyətlə tab gətirilməsi xüsusilə diqqətdə saxlanılır.

Bununla yanaşı, bölmənin döyüş hazırlığının yüksəldilməsi üçün bilik və bacarığını əsirgəməyən mayor Y.Cəfərov xidmətini tələblərə uyğun olaraq təşkil edir. Hərbi qulluqçuların mənəvi-psixoloji hazırlıqlarının təkmilləşdirilməsində isə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Firat Sadıqovun fəaliyyəti danılmazdır. Belə ki, bölmənin daim döyüş hazırlığının qorunub saxlanılmasında aparılan keyfiyyətli tərbiyə işinin rolu böyükdür.

Dəstə komandirinin müavini-qərargah rəisi şəxsi heyətin qəflətən qarşıya çıxan xidməti-döyüş tapşırıqlarının peşəkarcasına və müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bundan sonra da yorulmadan, əzmlə çalışacağını, komandanlığın etimadını daim doğruldacağını söylədi. O, intizamlı və fəal hərbi qulluqçulardan baş leytenant Qalib Abıyev, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularından baş çavuşlar Hilal Məmmədov, Ləmyar Məmmədov, çavuşlar Şahlar Bəxtiyarlı, Anar Cavadlı, kiçik çavuş Hüseyn Əzimov və əsgər Samir Rəsulovun adlarını çəkdi.

**kapitan Xədicə Hacızadə**

## Hərbi Prokurorluq Daxili Qoşunlarla birgə Ulu Öndərin 100 illik yubileyi münasibətilə tədbir keçirib

Hərbi Prokurorluq Daxili Qoşunlarla birgə Ulu Öndərin 100 illik yubileyi münasibətilə tədbir keçirib.



Hərbi Prokurorluğun mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Zaqatala rayonunda yerləşən "N" saylı hərbi hissədə Daxili İşlər Nazirliyinin Daxili Qoşunları ilə birgə keçirilən tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsinin və şəhidlər guşəsinin önünə gül dəstələri düzülərək əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla yad edilib, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.



Mərasimdə çıxış edən Hərbi prokurorun böyük köməkçisi, mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev və Hərbi Prokurorluğun Dövlət İttihamının Müdafiəsi üzrə Şöbəsinin rəisi, ədliyyə polkovniki Səfər Əhmədov əvvəlcə Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamlarını şəxsi heyətə çatdırıblar. Bundan sonra həmin şəxslər, Zaqatala hərbi prokuroru, ədliyyə polkovnik-leytenantı Emin Quliyev, eləcə də hərbçilər müstəqillik yolumuzu və firavan gələcəyimizi işıqlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışçılar, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə zamanın tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ilə yaxın müddətdə ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların qazanılmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın əzmkarlığından danışıblar.

Çıxışlarda, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbə xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, o dövrdə prokurorluğun, həmçinin Hərbi Prokurorluğun Silahlı Qüvvələrlə, o cümlədən Daxili Qoşunlarla qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, qürur dolu 44 günün unudulmaz təəssüratları xatırlanıb.

**AZƏRTAC**

## DÖYÜŞ HAZIRLIĞININ ARTIRILMASINA DİQQƏT YETİRİLİR



16075 saylı hərbi hissənin yüksək döyüş hazırlığı və layiqli xidmətilə fərqlənən bölmələrindən biri xüsusi vasitələrin tətbiqi dəstəsidir. Dəstə öz vəzifələrindən irəli gələn tapşırıqların icrasına məsuliyyətlə yanaşır və regionda ictimai qaydanın qorunub saxlanılmasında peşəkarlıq nümayiş etdirir. Şəxsi heyətin cəlb olunduğu xüsusi əməliyyatlarda qarşıya qoyulan tapşırıqları yüksək səviyyədə yerinə yetirməsi bunu deməyə əsas verir.



Bölmənin döyüş təlimi, ictimai-siyasi hazırlığı, daxili qayda-qanuna riayət edilməsi, texnikanın, silah-sursatların və əmlakların vəziyyətinə, eləcə də şəxsi heyət tərəfindən döyüş tapşırıqlarının müvəffəqiyyətlə icra olunmasına cavabdehlik daşıyan dəstə komandiri kapitan Araz Sadıqov qarşıya qoyulan bütün tapşırıqların vaxtında və dəqiq yerinə yetirildiyini söylədi. Bildirdi ki, tərtib olunmuş məşğələ cədvəlinə əsasən, hərbi qulluqçularla ictimai-siyasi hazırlıq, sıra hazırlığı, fiziki hazırlıq, Daxili Qoşunların taktiki hazırlığı, atəş hazırlığı, taktiki hazırlıq və ixtisas hazırlığından məşğələlər keçirilir. Bu zaman hərbi qulluqçuların bilik və bacarıqlarının artırılmasına, məşğələ mövzularının dərindən mənimsənilməsinə diqqət yetirilir.

Kapitan A.Sadıqov keçirilən təlim və məşğələlərin, eləcə də aparılan tərbiyə işinin bir məqsədə - döyüş hazırlığının hər zaman yüksək səviyyədə qorunub saxlanılmasına xidmət etdiyini bildirdi: "Dəstənin öz vəzifələrini keyfiyyətlə yerinə yetirə bilməsi üçün hərbi hissəmizdə hər bir şərait yaradılıb. Göstərilən diqqət və qayğıya cavab olaraq, bizim də üzərimizə təbii ki, böyük məsuliyyət düşür. Bu, dəstənin döyüş hazırlığını daim yüksək səviyyədə qoruyub saxlamaq, qoyulan tapşırıqları məsuliyyətlə və vaxtında icra etməkdir".

Dəstə komandiri məlumat verdi ki, keçirilən təlimlər zamanı bölmə komandirləri tərəfindən şəxsi heyətin bilikləri və praktiki vərdişləri şəxsən yoxlanılır.

Keçirilən tərbiyə işi saatlarının əhəmiyyətindən söz açan dəstə komandiri şəxsi heyətlə yüksək nizam-intizama nail olunması və onun qorunub saxlanılması mövzusunda söhbətlərin aparıldığını bildirdi. O, bu işdə dəstə komandirinin tərbiyə işləri üzrə müavini mayor Əli Ağayevin əməyini xüsusilə qeyd etdi.

Zabit dəstənin ictimai həyatında, keçirilən təlim və məşğələlərdə fəallıq nümayiş etdirən, həmçinin funksional vəzifələrinin öhdəsindən layiqincə gələrək digər hərbi qulluqçulara da nümunə olduqlarını qeyd edərək baş leytenant Ənvər Hacızadənin, kiçik gizir Ruhin Əbilovun, baş çavuş Ramin Şaxayevin, çavuş Elton İsgəndərovun, baş əsgər Həmid Abdulrəhimovun və əsgər Ruslan Şıxməmmədlinin adlarını çəkdi. Kapitan A.Sadıqov hərbi xidmətdə əzmkarlıq və nümunə göstərməyi bacaran xüsusi vasitələrin tətbiqi dəstəsinin bundan sonra da üzərinə düşən vəzifələri uğurla icra edəcəyinə və qarşıya qoyulan tapşırıqları yerinə yetirərkən peşəkarlıq göstərəcəyinə əminliyini ifadə etdi.

**kapitan Şahin Cəfərzadə**

31 iyul 2023-cü il ƏSGƏR 3

*Şəhidlərimiz*

# ATASININ DÖYÜŞ YOLUNU ŞƏRƏFLƏ DAVAM ETDİRƏRƏK ÖLÜMSÜZLƏR MƏQAMINA YÜKSƏLDİ...

Xalqımız uzaq keçmişində olduğu kimi, müasir müstəqillik tarixində də işğal, soyqırım, etnik təmizləmə, qaçqınlıq və məcburi köçkünlük faciələrini yaşayıb. Ermənistanın hərbi təcavüzü nəticəsində ölkəmizin ərazi bütövlüyü pozularaq bir sıra rayonlarımız uzun illər düşmən tapdağında qalıb. Müharibə ağrı-acıları bizi dərindən sarsıdıb. Doğma torpağımızı müdafiə etmək üçün xalqımız ləyaqətlə mübarizə aparıb və qurbanlar verib.

Birinci Qarabağ müharibəsi, Aprel döyüşləri, eləcə də 44 günlük Vətən müharibəsi iki nəslin - ataların və oğulların həyatında unudulmaz iz qoyub. Hər iki nəslin nümayəndələri Vətən uğrunda fədakarcasına vuruşublar. Ataların ölkəmiz üçün ağır tarixi şəraitdə başa çatdıra bilmədikləri döyüşçü missiyasını onların yetişdirdikləri oğullar layiqincə yerinə yetiriblər. 44 günlük Vətən müharibəsində misilsiz hərbi zəferimizlə dövlətimiz və xalqımız qalib adını qazanıb. Bu müqəddəs məqsədə çatmağımız üçün şəhid olmuş oğullar ürəklərdə yaşayırlar. Onlardan biri Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının sıralarında xidmət etmiş çavuş Quluzadə Elşən Qulu oğludur. Şəhid xüsusi təyinatlının döyüş yolu gənclərə örnəkdir.

Şəxsiyyət vəsiqəsində Elşənin 1998-ci il oktyabrın 20-də Füzuli rayonunun İkinci Mahmudlu kəndində anadan olduğu qeyd edilsə də, doğma yurdu Qarabağ kəndidir. Hər iki kənd Füzuli rayonunun Əhmədbəyli kənd inzibati ərazi dairəsinə daxildir. Birinci Qarabağ müharibəsi zamanı bu kəndlər işğala məruz qalmayıb, lakin yaxın ərazilərdə şiddətli döyüşlər gedib.

Müharibə veteranı Qulu Quliyevin ailəsində dünyaya gələn Elşən atəşkəs dövründə böyüyərək boya-başa çatıb. Qulu Quliyev və Arzu Həşimovanın üçüncü övladı olan Elşənin yaşca böyük Könül və Kəmalə adlı bacıları, həmçinin ailənin sonbeşiyi sayılan Elvin adlı qardaşı var. Onlar vətənpərvər və zəhmətkeş ailədə tərbiyə alıblar. Ailəsinin verdiyi məlumata görə, Elşən valideynləri, bacıları və qardaşı ilə ünsiyyətdə mehriban olub, doğmalarına qayğısını əsirgəməyib, yaşıdları arasında ədəb-ərkanı, xeyirxahlığı, təhsilinə ciddi münasibəti, zərərli vərdişlərdən uzaq durması ilə seçilib. O, Qarabağ kəndindəki tam orta məktəbi bitirib. Orta məktəbdə oxuyarkən çağırışaqədərki hazırlıq, fiziki tərbiyə, tarix, ana dili və ədəbiyyat fənlərinə xüsusi maraq göstərib. İdmana həmişə həvəslə yanaşıb. Hələ məktəbli olduğu vaxtdan hərbçi peşəsinə rəğbət bəsləyib.

2015-ci ildə Elşən Bakıda yerləşən Azərbaycan Dənizçilik Kollecinə qəbul olunub, II kursda təhsil alarkən müddətli həqiqi hərbi xidmətə çağırılıb.

2016-cı ilin oktyabr ayında DİN-in Daxili Qoşunlarının sıralarına hərbi xidmətə yola salınıb. 25031 saylı hərbi hissədə hərbi and içib. Sonra 12318 saylı hərbi hissədə kiçik komandirlər kursunu keçib. Nəhayət, 17074 saylı hərbi hissənin komendant bölüyü və xüsusi təyinatlı dəstəsində kiçik komandir olaraq xidmətini davam etdirib. Hərbi xidmət borcunu vicdanla yerinə yetirib.



Komandirləri tərəfindən müsbət xarakterizə olunub. Tərxis olunmaq ərəfəsində müddətdən artıq həqiqi hərbi xidmətə qalmaq təklifini qəbul edib. Bununla da həyatını hərbi xidmətə bağlamağa qərar verib. Ailəsi bu qərarını dəstəkləyib, ata-anasının xeyir-duası onu daha da ruhlandırıb.

2018-ci ilin aprel ayının 12-dən etibarən Elşən müddətdən artıq həqiqi hərbi xidmətə başlayıb. 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin snayper və xüsusi həmlə qruplarının snayperi, 2020-ci ilin iyun ayının 23-də isə 99713 saylı hərbi hissəyə keçirilərək xüsusi təyinatlı dəstənin snayper qrupunun atıcı-müşahidəçisi vəzifələrində xidmət edib. Təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldub, silahdaşlarının hörmətini qazanıb. Xüsusi təyinatlı kimi yüksək döyüş və mənəvi-psixoloji hazırlığı ilə fərqlənib. Snayper olaraq zəruri bilik və bacarıqlara yiyələnib. Praktiki təlimlərdə fəal olub, peşəkarlıq vərdişlərini təkmilləşdirib. Dəfələrlə komandanlıq tərəfindən mükafatlandırılıb.

Vətən müharibəsi iştirakçısı, 17072 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin xüsusi həmlə qrupunun yarımqrup komandiri baş çavuş Yasin Qasımov məlumat verdi ki, Elşən onun tabeliyində xidmət edib: “17072 saylı hərbi hissəyə gəldiyi vaxtdan xüsusi təyinatlı dəstənin şəxsi heyətinə tezliklə uyğunlaşaraq, öz hərəkətləri ilə yoldaşlıq münasibətlərinə dəyər verdiyini göstərdi. Qrupda bir çoxundan yaşca kiçik idi, təcrübəli hərbçilərin məsləhətlərini nəzərə alırdı. İntizamlı və çalışqan hərbi qulluqçu olub. Təlim və məşğələlərin mövzularını həvəslə öyrənib. Mahir snayper kimi yetişmək üçün səy göstərib.

Silahından həmişə sərrast atəş açıb, snayperlər arasında yarış olanda o, birinci yeri tutub. Elşən xidmətdə öz nailiyyətləri ilə dəstənin adını ucaldıb. Heç vaxt tabeçilik qaydalarını pozmayıb, hər yerdə etik davranıb. Müharibəyə bir neçə ay qalmış onun xidmət yerini dəyişdilər. Ön cəbhədə göstərdiyi şücaətlər barədə mənə danışıblar. Qürur duyuram ki, belə bir mərd silahdaşımız olub”.

Gizir Şamil Əhmədov da Vətən müharibəsi iştirakçısıdır. 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin snayper qrupu komandirinin müavini-snayper vəzifəsindədir. Şamil bildirdi ki, Elşən bu hərbi hissənin xüsusi təyinatlı dəstəsinə keçirilərkən snayper qrupunda üç aydan bir neçə gün artıq müddətdə xidmət edib: “Həmin vaxt qrup komandirinin vəzifələrinin icrası mənə həvalə olunmuşdu. Elşən atıcı-müşahidəçi kimi qarşısına qoyulan tapşırıqlara məsuliyyətlə yanaşıb. Xüsusi təyinatlı məsləyinə sadiq, xasiyyətcə dürüst, iradəli, fiziki cəhətdən dözümlü idi. Koronavirus pandemiyası ilə əlaqədar karantin rejiminin təmin olunması üzrə xidmətə çıxıb, ayıq-sayıqlıq göstərib. Vətən müharibəsi başlayanda hərbi hissədən döyüş bölgəsinə göndərilib, gözündə qorxu olmadan, igidcəsinə bütün təhlükələrə sinə gərib“.

Vətən müharibəsi iştirakçıları, 99713 saylı hərbi hissənin xüsusi təyinatlı dəstəsinin snayper qrupunun atıcı-snayperi baş çavuş Aqil Əhmədov, 16077 saylı hərbi hissənin ayrı yerləşən xüsusi təyinatlı dəstəsinin təminat bölüyünün təminat taqımının yeməkxana rəisi baş çavuş Fariz Abbasov Elşənin döyüşçü yoldaşları olaraq onunla bağlı xatirələrini bölüşdülər. Bununla yanaşı, Müdafiə Nazirliyinin tabeliyindəki Xüsusi Təyinatlı Qüvvələrin döyüş yolu keçmiş hərbi qulluqçularından birinin şəhid haqqında verdiyi məlumatları da qeydə aldım.

Müsahiblərimin sözlərinə görə, Elşən Vətəni sevən, hərbi anda sadiq, peşəkar, döyüşkən xüsusi təyinatlı kimi onların yaddaşında qalıb. Silahdaşlarına can yandırıb, üzləşdikləri çətinliklərə biganə olmayıb. Müharibədən əvvəl xüsusi təyinatlı bölmələrin təlimində öz məharətini daha da artırıb. İstənilən döyüş tapşırığını yerinə yetirməyə daim hazır olub.

2020-ci il sentyabrın 27-də Elşən erməni işğalçılarına qarşı döyüşlərə qatılıb. O, düşməndən qisas almaq, torpaqlarımızın işğalına son qoymaq üçün bu məqamı illərdir səbirsizliklə gözləyib. Ailədə haqqında danışılan, video və şəkillərdə gördüyü yurdlarımıza döyüşçü kimi qədəm basmağı arzulayıb.

Ön cəbhənin müxtəlif istiqamətlərində ayrı-ayrı qoşun növlərinin xüsusi təyinatlı bölmələrinin şəxsi heyəti döyüş əməliyyatlarında birlikdə iştirak edərək düşmənə tutarlı zərbələr vurublar. Döyüşçü yoldaşlarının bildirdiklərinə görə, Elşən Kəlbəcər rayonu istiqamətində, Murovdağ silsiləsinə aid bəzi yüksəkliklərin, Cəbrayıl, Füzuli və Xocavənd rayonlarının yaşayış məntəqələrinin azad olunması uğrunda qətiyyətlə vuruşub. Tərkibində döyüşdüyü “F” dəstəsində Daxili Qoşunlardan da komandirlər olub. Bu komandirlərdən biri, hazırda sıralarımızda xidmət etməyən Vətən Müharibəsi Qəhrəmanı polkovnik Füzuli İmrəliyev öz şəxsi nümunəsi ilə şəxsi heyətə ruh yüksəkliyi aşılayıb.



Hərbi qulluqçularımız danışdılar ki, Elşən mövqe tutduğu odlu səngərlərdə pulemyotçu köməkçisi kimi işğalçılara qan uddurub, onun cəsarəti və çevikliyi sayəsində bir çox atəş nöqtəsi susdurulub. Döyüşlər zamanı atəş altında olsa da, özünü yaralılarımıza yetirib, onların çıxarılmasına kömək edib. Silahdaşlarının şəhid olmasına dərindən sarsılıb. Yoldaşlarına söyləyib ki, bu müqəddəs məqama ucalmaq hər oğulun taleyinə yazılmayıb.

Oktyabrın 11-də Hadrut qəsəbəsinin yaxınlığındakı yüksəklikdə Elşən və döyüşçü yoldaşları pusquya düşüblər. Orada onlarla xüsusi təyinatlı şəhid olub və yaralanıb. Həmin döyüşdə pulemyotçu yaralandığından onun silahını götürən Elşən işğalçıları ciddi tələfata uğradıb. Ancaq düşmən snayperinin atəşi nəticəsində başının sağ tərəfindən ağır yaralanıb. Silahdaşları onun şəhid olduğunu zənn ediblər, sağ qaldığını gördükdə isə ərazidən təxliyyə olunub. Hərbi qulluqçularımız pusqu vəziyyətindən çıxaraq irəliləyiblər, ermənilər qorxaraq geri çəkiliblər.

Döyüşçü ayrı-ayrı rayonlarda, habelə paytaxtda yerləşən bir neçə xəstəxana və qospitala yerləşdirilərək müalicəsi həyata keçirilib. Oktyabrın 28-də komadan ayılıb. Mərkəzi Gömrük Qospitalında başından cərrahi əməliyyat olunub. Oradan Azərbaycan Tibb Universitetinin Tədris-Cərrahiyyə Klinikasına göndərilərək, növbəti cərrahi əməliyyat aparılıb. Dekabrın 28-də danışmağa başlayıb, “hər şey yaxşı olacaq” deyib. 2021-ci il yanvarın 21-də həkimlərin səylərinə baxmayaraq, Elşən yaralanmanın ağır fəsadları səbəbindən həyata əbədi olaraq gözlərini yumub. 3 saylı Bakı “ASAN xidmət” mərkəzi tərəfindən verilən 25 yanvar 2021-ci il tarixli ölüm haqqında şəhadətnamədə də bu fakt öz əksini tapıb.

Vida mərasimində Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazovun rəhbərliyi altında nazir müavinləri, Daxili Qoşunların komandanlığı və şəxsi heyəti, ictimaiyyət nümayəndələri iştirak ediblər.

Şəhid hərbi qulluqçumuz Füzuli rayonunun Yuxarı Kürdmahmudlu kəndinin qəbiristanlığında torpağa tapşırılıb.

Azərbaycan Respublikası Prezidentinin 18, 29 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları ilə çavuş E. Quluzadə sağlığında “Cəsur döyüşçü”, “Şuşanın azad olunmasına görə”, 24 iyun 2021-ci il tarixli digər sərəncamlarına əsasən isə ölümündən sonra “Vətən uğrunda” “Füzulinin azad olunmasına görə”, “Cəbrayılın azad olunmasına görə” və “Kəlbəcərin azad olunmasına görə” medalları ilə təltif olunub.

Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının 31 dekabr 2020-ci il tarixli müvafiq əmri ilə çavuş E.Quluzadəyə zoğalı beret daşıma hüququ verilib.

O, döyüşçü olaraq babasının və atasının davamçısı idi. Babası Usub Həsənov 1941-1945-ci illərdə alman faşistlərinə qarşı döyüşmüş və ön cəbhədən sağ qayıtmışdı. Atası Qulu Quliyev isə Birinci Qarabağ müharibəsinə könüllü olaraq yollanıb. Uryandağ istiqamətində kürək nahiyəsindən qəlpə yarası və kəllə-beyin travması alıb. 1996-cı ildə ordudan ehtiyata buraxılıb.

Q.Quliyev dedi ki, qeyrətli və ailəcanlı bir oğul itirmək nə qədər ağır olsa da, torpaqlarımızın qaytarılması ilə təskinlik tapır. Əvvəlki müharibədə o nəslin edə bilmədiyini bu gənclər gerçəyə çevirdilər.

Qeyd edim ki, Quliyevlər ailəsinin qohumları arasında şəhidlər və qazilər var. Qarabağ kəndindən isə 2 nəfər şəhid olub. Onlardan biri Elşəndir, digəri Birinci Qarabağ müharibəsində şəhadətə ucalıb. Kənddə inzibati ərazi dairəsində yaşamış şəhidlərin xatirəsinə abidə-bulaq kompleksi yaradılıb. Qarabağ kənd tam orta məktəbinin və rayondakı digər məktəblərin müxtəlif siniflərinə şəhidin adı verilib. Quliyevlər ailəsinin yaşadığı evdə xüsusi təyinatlının xatirə guşəsi düzəldilib. Müxtəlif müəlliflərin kitablarında, dövri mətbuatda, ayrı-ayrı televiziya kanallarında Elşənin döyüş yolu işıqlandırılıb.

Elşən subay idi, gələcəklə bağlı arzuları vardı. Sonuncu dəfə atası ilə danışanda “haqqını halal et” deyib, qardaşı Elvinə isə vacib tövsiyələr verib. İnanıram ki, Elvin şəhid qardaşının ümidlərini doğruldacaq.

**Allah rəhmət eləsin!**

**Yalçın Abbasov**

# ŞƏHİD AİLƏLƏRİNƏ DİQQƏT VƏ QAYĞI GÖSTƏRMƏK HƏR BİR VƏTƏNDAŞIN BORCUDUR

Bu gün cəmiyyətdə şəhid hərbi qulluqçulara və onların ailə üzvlərinə dərin rəğbət və ehtiram nümayiş etdirilir. Onların həyatı və şücaət, mərdlik, qəhrəmanlıq nümunələri ilə zəngin olan xidməti-döyüş fəaliyyəti gənclərə örnək göstərilir.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin də şəhid ailələrinə daim göstərdiyi diqqət və qayğı göz önündədir. Şəhid ailələrinin sosial-məişət problemlərinin aradan qaldırılması, ehtiyaclarının qarşılanması istiqamətində respublikamızda həyata keçirilən tədbirlər təqdirəlayiqdir.

Daxili İşlər Nazirliyinin rəhbərliyi və Daxili Qoşunların komandanlığı tərəfindən şəhid ailələri ilə bağlı məsələlər daim diqqət mərkəzində saxlanılır.

16075 saylı hərbi hissədə xidməti ezamiyyətdə olarkən hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Zamin Rəsulovun rəhbərliyi ilə bir neçə hərbi qulluqçunun Daxili Qoşunların şəhid hərbi qulluqçusu gizir Həsənov Faiq Hüseyn oğlunun Bakı şəhərində yaşayan ailəsinə baş çəkməsi də göstərilən qayğının təzahürüdür. İlk öncə xüsusi təyinatlı dəstənin bir qrup şəxsi heyəti tərəfindən şəhidin paytaxtın 2-ci Şəhidlər xiyabanındakı məzarı ziyarət



olunub. Şəhadətə ucalmış xüsusi təyinatlının xatirəsi anılaraq məzarına gül dəstələri qoyulub.

Qeyd edək ki, gizir F.Həsənov 1990-cı il iyulun 28-də Bakı şəhərində anadan olub. Hüseyn Həsənov və Yeganə Həsənovanın qurduğu ailənin böyük övladı idi. Onun iki bacısı və bir qardaşı var. 2012-2013-cü illərdə Faiq Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2015-2020-ci illərdə Faiq Daxili Qoşunların 16075 saylı hərbi hissəsinin xüsusi vasitələrin tətbiqi dəstəsinin manevr və götürmə qruplarının atıcısı, eləcə də xüsusi təyinatlı dəstənin texniki vəzifələrində xidmət edib. O, 44 günlük Vətən müharibəsində ilk gündən iştirak edərək düşmənə qarşı qətiyyətlə vuruşub. 2020-ci il oktyabrın 5-də Füzuli rayonunda döyüş zamanı aldığı güllə yarasından şəhidlik zirvəsinə ucalıb.

Azərbaycan Respublikası Prezidentinin 15 və 24 dekabr 2020-ci il tarixli müvafiq sərəncamları, Azərbaycan Respublikası Müdafiə nazirinin 3 noyabr 2020-ci il tarixli müvafiq əmri ilə gizir F.Həsənov ölümündən sonra “Vətən uğrunda”, “Cəbrayılın azad olunmasına görə” və “Şücaətə görə” medalları ilə təltif edilib.

Şəhidin ailəsi ilə görüşən hərbi qulluqçularımız Faiqin anası Yeganə Həsənova və dayısı, 1989-1991-ci



illərdə Qazax-Ağstafa bölgəsində erməni işğalçılarına qarşı vuruşmuş qazi Mahir Rzayev ilə söhbət ediblər. Söhbət zamanı onlar Faiqin ömür yolu barədə xatirələrini bölüşüblər.

Şəhidin dayısı Mahir Rzayev qeyd edib ki, 2020-ci il oktyabrın 2-də Cəbrayıl rayonunun Böyük Mərcanlı kəndi ətrafında döyüş zamanı Faiq qapalı kəllə-beyin travması alıb. Əhmədbəylidəki hərbi qospitalda yerləşdirilərək, bir neçə gün müalicə olunub. Qospitalda onun yanına gedib. Bakıda müalicəsinin davam etdirilməsinin zəruriliyini, qoyulan diaqnozun ciddiliyini Faiqə söyləyib. Ancaq dayısının təkidinə baxmayaraq, o, döyüşlər başa çatanadək Bakıya getməyəcəyini bildirib.

Şəhidin anası Yeganə Həsənova oğlu barədə fəxarətlə və qürurla danışıb. Şəhidin məzunu olduğu 190 saylı orta məktəbdə və Mingəçevir Dövlət Universitetində Birinci və İkinci Qarabağ müharibəsi şəhidlərinin xatirəsinə ehtiram göstərildiyini qeyd edən ana hər iki təhsil müəssisəsinin yetirmələri olan şəhidlərin şəkillərini əks etdirən xatirə guşələri yaradıldığını bildirib. O, Nəsimi Rayon İcra Hakimiyyəti tərəfindən hazırlanan “Ölümsüzlər” adlı nəşrdə Faiq haqqında dərc olunan məlumatları diqqətimizə çatdıraraq, kitabın bir nüsxəsini “Əsgər” qəzetinin redaksiyasına hədiyyə edib. Yeganə xanım bildirib ki, övlad itirmək, özü də belə bir qeyrətli oğulun ölümü sözlə ifadə olunmayan ağrı-acıdır. Ailəsi üçün yeganə təskinlik Faiqin torpaqlarımızın azad edilməsi naminə şəhidlik məqamına ucalmasıdır.

Polkovnik-leytenant Z.Rəsulov Faiqin və digər şəhidlərimizin fədakarlığı nəticəsində ölkəmizin qazandığı hərbi zəfərin əhəmiyyətini qeyd edib. Hərbi qulluqçularımızın şərəfli döyüş yolu barədə maraqlı məqamlara toxunub.

Ümumiyyətlə, müharibədən ötən müddət ərzində istər Daxili İşlər Nazirliyinin rəhbərliyi, istərsə də Daxili Qoşunların komandanlığı tərəfindən göstərilən xüsusi diqqət və qayğıdan razı qaldığını söyləyən Həsənovlar ailəsi buna görə dərin minnətdarlığını ifadə edib.

**kapitan Şahin Cəfərzadə**

4_Layout 1 28.07.2023 10:42 Page 1



# DAXİLİ QOŞUNLARA ÇAĞIRIŞÇILARIN QƏBULU BAŞA ÇATIB



Məlum olduğu kimi, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin müvafiq sərəncamına uyğun olaraq, iyul ayında Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarında çağırışçıların müddətli həqiqi hərbi xidmətə qəbulu prosesi həyata keçirilib. Sərəncamdan irəli gələn tələblərin yerinə yetirilməsi məqsədilə, Daxili işlər nazirinin müavini-daxili qoşunların komandanının “Daxili Qoşunlara çağırışçıların seçilməsi, qəbulu, daşınması və sıraya daxil edilməsi ilə əlaqədar təşkilati tədbirlərin keçirilməsi haqqında” əmri ilə çağırışçıların tibbi müayinələrinin aparılması və mənəvi-psixoloji durumlarının qiymətləndirilməsi üçün seçim qrupu yaradılıb. Daxili Qoşunların Baş İdarəsinin qərargahında təşkilat və komplektləşdirmə şöbəsinin rəisi polkovnik Xalid Bağırov seçim qrupunun rəhbəri təyin edilib.



Bu sahədə görülən işlərin, verilən tapşırıqların icrası ilə bağlı məlumat verən 25031 saylı hərbi hissə komandirinin tərbiyə işləri üzrə müavini polkovnik-leytenant Müşfiq Xankişiyev bildirib ki, çağırışçıların xidmətə qəbulu, yerləşdirilməsi və hərbi anda gətiriləndək müvafiq qaydada hazırlanması Daxili Qoşunların komandanlığının diqqət yetirdiyi ən vacib məsələlərdəndir. Onların hərbi xidmətə tədricən uyğunlaşdırılmaları, hərbi nizamnamələrin müddəaları ilə tanış olmaları, eləcə də mənəvi-psixoloji durumlarının yüksək səviyyədə saxlanılması təsdiq edilmiş tədbirlər planına əsasən icra edilib. Bunun üçün mənəvi-psixoloji hazırlıq planları hazırlanıb və hərbi hissə komandiri tərəfindən təsdiq olunub.



Seçim qrupunun rəhbəri polkovnik X.Bağırov məlumat verib ki, hərbi-həkim komissiyasından keçməzdən əvvəl seçim qrupunun üzvləri tərəfindən qəbul məntəqəsinə daxil olan çağırışçılarla söhbətlər aparılıb. Söhbət zamanı onların demoqrafik məlumatları, məşğuliyyətləri, ailə vəziyyətləri, dünyagörüşü, Vətənə bağlılıqları, orduya münasibətləri, sosial vəziyyətləri, təhsilləri, bacarıq və işgüzar keyfiyyətləri ətraflı öyrənilib. Həmçinin hərbi xidmətin üstünlükləri izah edilib, dövlət və dövlətçiliyə sadiqlik, Vətənə məhəbbət kimi ən müqəddəs hisslərin, döyüş ruhunun aşılanması, mənəvi-psixoloji durumun yüksəldilməsi məqsədilə Daxili Qoşunların şərəfli döyüş yolu, qəhrəmanları haqqında məlumat verilib. Bütün məlumatlar toplandıqdan sonra isə hər bir çağırışçının mənəvi-psixoloji durumu haqqında rəy hazırlanıb və hərbi hissəyə təqdim olunub.

Daha sonra çağırışçılar növbə ilə həkim ekspert-nevropatoloq, həkim-terapevt, ordinator-ümumi cərrah, həkim-stomatoloq, həkim-endokrinoloq və baş ordinator-rentgenoloq tərəfindən müayinə olunublar, ümumi bədən baxışı və sonra flüoroqrafik müayinə keçirilib. Müayinələrdən keçən çağırışçılar barədə hərbi-həkim komissiyası tərəfindən rəylər verilib və yalnız praktiki sağlam hesab olunanlar hərbi xidmətə qəbul ediliblər.

Bununla yanaşı, çağırışçılar əşya əmlakları, eləcə də bədən ölçülərinə uyğun olan geyimlərlə təmin olunublar.

Çağırışçılar qəbul komissiyasından keçdikdən sonra hərbi hissədə bölük və taqım komandirləri tərəfindən onlarla tərbiyəvi söhbətlər aparılıb, hərbi xidmətə adaptasiya olunmaları üçün tərbiyə işləri üzrə bölmənin təlimatçı-psixoloqu tərəfindən müvafiq məsləhətlər verilib.

Hərbi hissədə çağırışçıların qəbulu və yerləşdirilməsi ilə bağlı lazım olan hər bir şəraitin mövcudluğu onu deməyə əsas verir ki, Daxili Qoşunların sıralarına xidmətə yeni qəbul olunmuş çağırışçıların Vətənə layiqli, intizamlı hərbi qulluqçu kimi formalaşması Daxili Qoşunların komandanlığının nəzarəti altında həyata keçirilib.

**Mətbuat xidməti**

# ŞƏXSİ HEYƏTİN SAĞLAMLIĞININ QORUNMASI BAŞLICA VƏZİFƏDİR

Hərbi hissələrdə şəxsi heyətin sağlamlığının qorunub saxlanılmasında tibb xidmətinin fəaliyyəti danılmazdır. Bu məqsədlə hərbi hissələrdə davamlı olaraq müalicəvi-profilaktik tədbirlər həyata keçirilməkdədir.

17071 saylı hərbi hissənin tibb xidmətinin şəxsi heyəti də vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə icra edir. Tibb xidməti rəisi tibb xidməti kapitanı Elçin Seyidov şəxsi heyətin tibbi təminatını həyata keçirir, hərbi hissədə müalicə-profilaktika, sanitariya-gigiyena qaydalarına riayət olunmasına, xəstə hərbi qulluqçulara vaxtlı-vaxtında lazımi tibbi yardımın göstərilməsinə cavabdehlik daşıyır.





Tibb xidməti kapitanı E.Seyidov bildirdi ki, gündəlik olaraq xidmət öz işini “Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının tibbi təminatı qaydaları haqqında Təlimat”ın tələblərinə və hissə komandiri tərəfindən təsdiq olunmuş plana əsasən təşkil edir. Öncə xidmət daxilində iclas keçirilir, gün ərzində görüləcək işlərin bölgüsü aparılır, hər bir hərbi qulluqçuya aidiyyəti üzrə tapşırıqlar verilir.

Həmçinin qarovul xidmətinə, eləcə də hissənin digər naryad növlərinə cəlb olunan şəxsi heyətin tibbi müayinəsi keçirilir, təzyiqləri ölçülür, sağlamlığında problem aşkar olunan hərbi qulluqçu dərhal xidmətdən azad edilir, ehtiyac yarandıqda tibb məntəqəsinə stasionar müalicəyə qəbul olunur. Bölmələrdə gündəlik olaraq, səhər və axşam saatlarında termometriya aparılır.

Həm vəzifə səlahiyyətini, həm də bir həkim kimi məsuliyyətini dərindən dərk edən tibb xidməti kapitanı Elçin Seyidov hərbi xidmətdə olduğu üçün fəxr etdiyini bildirdi və bundan sonra öz təcrübəsini artırmağı, peşə hazırlığını təkmilləşdirməyi qarşısına məqsəd qoyduğunu nəzərimizə çatdırdı.

O, tibb məntəqəsində feldşer gizir Fərid Əlizadənin qoyulan tapşırıqları uğurla və vaxtında icra etdiyini bildirdi. Həmçinin xüsusi vasitələrin tətbiqi bölmələrindən tibbi bilik və bacarıqlarına görə fərqlənən atıcı-sanitarlardan baş əsgər Tahir Mustafayev və əsgər Röyal Ələkbərovun adlarını çəkərək onları müsbət cəhətdən xarakterizə etdi.

**kapitan Nigar Ağayeva**

## HƏRBİ XƏBƏRLƏR •YENİLİKLƏR•

### “Otokar” “Akrep II R” kəşfiyyat və müşahidə maşınını ilk dəfə “İDEF-2023”də sərgiləyib

“Otokar” şirkəti “Akrep II R” kəşfiyyat və müşahidə maşınını ilk dəfə “İDEF-2023” sərgisində nümayiş etdirib. “Poliqon” “Otokar” şirkətinə istinadən xəbər verir ki, o, “Akrep II” zirehli maşın ailəsinin yeni üzvüdür.

Qabaqcıl kəşfiyyat və müşahidə maşını kimi inkişaf etdirilən “Akrep II R” kiçik silueti ilə döyüş sahəsinə yaxın bölgədə asanlıqla kəşfiyyat və müşahidə fəaliyyətlərini yerinə yetirmək bacarığına malikdir.




*NÜMUNƏVİ XİDMƏT*

# DÖYÜŞ YOLU KEÇƏN BAŞ PULEMYOTÇU

Daxili Qoşunların sıralarında hərbi xidmət keçən baş çavuş Vəfadar Bayramov məsuliyyətlə, vicdanla vəzifələrini yerinə yetirir. Hər zaman seçdiyi peşə ilə fəxr edən hərbi qulluqçu bu illər ərzində bir dəfə də olsun vəzifələrinin icrasına səthi yanaşmayıb.

O, 1993-cü ilin iyun ayının 24-də Saatlı rayonunun Məmmədabad kəndində doğulub. Orta təhsilini 1999-2010-cu illərdə doğma kəndində alıb. Uşaq yaşlarından idmanın karate növünə marağı olan Vəfadar qəhvəyi kəmər sahibidir. 2011-ci ilin iyul ayından 2013-cü ilin yanvar ayınadək Müdafiə Nazirliyinin “N” saylı hərbi hissəsində müddətli həqiqi hərbi xidmət keçib. 2017-ci ildə 25033 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun xüsusi vasitələrin tətbiqi bölməsinin atıcısı vəzifəsinə müddətdən artıq həqiqi hərbi xidmətə qəbul olunub. 2018-ci ildə Vəfadar xüsusi təyinatlı qrupun 2-ci yarımqrupunun atıcı vəzifəsinə təyin edilib. Təyin edildiyi vəzifələrdə komandanlığın etimadını doğruldub, komandirlər tərəfindən dəfələrlə mükafatlandırılıb. Hərbi kollektivdə silahdaşlarının hörmətini qazanıb.

2020-ci ilin oktyabr ayından Füzuli rayonu istiqamətində Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda vuruşub. Azərbaycan Respublikası Prezidentinin 25, 29 dekabr 2020-ci il, 24 iyun 2021-ci il tarixli müvafiq sərəncamları ilə baş çavuş V.Bayramov “Füzulinin azad olunmasına görə”, “Şuşanın azad olunmasına görə”, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 21 aprel 2022-ci il tarixli müvafiq sərəncamına əsasən, “Vətən müharibəsi iştirakçısı” medalları ilə təltif olunub.



Onu da qeyd etmək istəyirəm ki, hərbi qulluqçumuzun qardaşı Fərrux Vətən müharibəsində Şuşakənd istiqamətində gedən döyüşlərdə aldığı snayper gülləsi yarasından 2020-ci il noyabrın 4-də şəhidlik zirvəsinə yüksəlib. Böyük fəxr hissi ilə qardaşının keçdiyi şərəfli döyüş yolu barədə danışan Vəfadar Vətənin müdafiəsinin hər bir hərbi qulluqçunun müqəddəs borcu olduğunu qeyd etdi.

Vəfadar cari ilin fevral ayından 25033 saylı hərbi hissənin ayrı yerləşən patrul taborunun xüsusi vasitələrin tətbiqi qrupunun baş pulemyotçusu vəzifəsində xidmətini layəqətlə davam etdirir.

Funksional vəzifələrinin icrasına vicdanla yanaşan hərbi qulluqçu peşəkarlıq vərdişlərinin təkmilləşdirilməsi yönündə öz üzərində çalışır, verilən tapşırıqları yüksək səviyyədə yerinə yetirmək üçün əlindən gələni əsirgəmir.

**kapitan Şahin Cəfərzadə**

# BACARIQLI RADİOTELEFONÇU

16075 saylı hərbi hissənin nümunəvi xidmətilə fərqlənən hərbi qulluqçularından biri əsgər Əli Cəfərlidir. O, 2022-ci ilin iyul ayından 25031 saylı hərbi hissədə müddətli həqiqi hərbi xidmətə başlayıb. Həmin ilin noyabr ayında 16075 saylı hərbi hissədə təşkil edilmiş rabitəçi kursunu keçərək təminat bölüyünün rabitə taqımının radiotelefonçusu vəzifəsinə təyin edilib.

Əsgər Ə.Cəfərli 2004-cü il mart ayının 14-də Mingəçevir şəhərində anadan olub. 2010-2019-cu illərdə Bakı şəhərinin Xətai rayonundakı 251 nömrəli orta məktəbdə təhsil alıb. 2019-2022-ci illərdə isə 14 saylı peşə liseyində lift üzrə elektromexanik ixtisasına yiyələnib. Uşaq yaşlarından idmanın boks növünə maraq göstərib və sərbəst şəkildə məşğul olub.

Radiotelefonçu bildirdi ki, xətt nəzarətçisi kimi xidmətə cəlb olunur və gündəlik Daxili Qoşunların Baş İdarəsi, eləcə də hərbi hissələrlə rabitə əlaqəsi yoxlanılır, hər hansı nasazlıq baş verərsə, dərhal aradan qaldırılması təmin edilir.



Əsgər Ə.Cəfərli xidməti-vəzifə borclarına məsuliyyətlə yanaşır, qarşıya qoyulan tapşırıqları layəqətlə yerinə yetirir, hərbi nizamnamələrin tələblərini bilir və gündəlik xidmətini bu tələblərə uyğun təşkil edir. O, bölük komandiri tərəfindən müsbət xarakterizə olunur.

**16075 saylı hərbi hissənin ştatdankənar müxbir postu**

# MƏSULİYYƏTLİ ƏSGƏR, NÜMUNƏVİ XİDMƏT

Daxili Qoşunların 16077 saylı hərbi hissəsinin nizam-intizamı ilə fərqlənən komendant bölüyünün hərbi qulluqçusu əsgər Elvin Məmmədov 1998-ci il noyabr ayının 7-də Bakı şəhərində doğulub. O, orta təhsilini Bakı şəhərinin Nizami rayonundakı 10 saylı tam orta məktəbdə alıb. 2016-2020-ci illərdə Azərbaycan Universitetində “Mühasibat uçotu və audit” ixtisasına yiyələnib. 2020-2022-ci illərdə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının “İdman menecmenti” fakültəsində ingilis dilində magistr təhsili alıb. Eyni zamanda, bu illər ərzində AFFA-da çalışıb. 2021-ci ildə tam təqaüdlə İngiltərənin Koventri Universitetinə qəbul olunub. 2022-ci ilin oktyabr ayında müddətli həqiqi hərbi xidmətə çağırılıb. Hazırda komendant bölüyünün atıcısı vəzifəsində xidmət edir. Uşaq yaşlarından idmana böyük marağı olub, sərbəst şəkildə üzgüçülüklə və futbolla məşğul olub.

Öz intizamı ilə əsgər yoldaşlarına nümunə olmağa çalışan hərbi qulluqçumuz vətənpərvərlik əqidəsinə sadiqdir. Komendant bölüyündə xidmət etməkdən qürur duyduğunu bildirən Elvin xidmətini başa vurduqdan sonra Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında müəllim kimi işləmək arzusundadır.



**kapitan Xədicə Hacızadə**

TƏSİSÇİ:
Azərbaycan Respublikası DİN
Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: Anar Əhmədov

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4,
Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63

Qəzet ayda 2 dəfə nəşr olunur. “Əsgər” qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000